343) Kron xəstəliyi zamanı iltihab prossesi ilkin olaraq bağırsaq divarının hansı qatında başlayır?

ərk.az ödənişsiz istifadə üçün

A) Selikaltı qatda
B) Selikli qişada
C) Selikli qişa və selikaltı qatda eyni zamanda
D) Əzələ qatında
E) Seroz qişada

Ədəbiyyat: Г.Е.Ройтберг, А.В.Струтынский. Внутренние болезни. Система органов пищеварения - 2-е изд. – М.: МЕДпресс-информ. 2011, стр.399, абз.4..

344) Kron xəstəliyi zamanı daha çox hansı simptomlar izlənilir?

1. İshal
2. Qusma
3. Qəbizlik
4. Abdominal ağrı
5. Ağızda yanğı hissi

A) 1, 4
B) 3, 4, 5
C)1, 2, 3
D) 1, 2, 4
E) 1, 5

Ədəbiyyat: Г.Е.Ройтберг, А.В.Струтынский. Внутренние болезни. Система органов пищеварения - 2-е изд. – М.: МЕДпресс-информ. 2011, стр.402, абз.2.

345) Kron xəstəliyinin aktivliyinin göstəricisi olan Best indeksinin meyarlarına aiddir:

A) Albumin və hemoqlobinin enməsi
B) Hematokritdə dəyişiklik ilə 1 həftə ərzində abdominal ağrının intensivliyi
C) Ümumi əhvalda pozulma ilə hemoqlobinin səviyyəsində enmə
D) Hematokritdə və zərdabda albuminin səviyyəsində enmə
E) 1 həftə ərzində defekasiyanın sayı və hemoqlobinin aşağı göstəriciləri

Ədəbiyyat: Г.Е.Ройтберг, А.В.Струтынский. Внутренние болезни. Система органов пищеварения - 2-е изд. – М.: МЕДпресс-информ. 2011, стр.406, табл.16.2.

346) 5-aminosalisil turşusu (5-AST) preparatları hansı xəstəliyin müalicəsində istifadə olunur ?

A) Bağırsağın iltihabi xəstəlikləri
B) Ürəyin işemik xəstəliyi
C) Xronik böyrək çatışmazlığı
D) Revmatoid artrit
E) Şəkərli diabet tip 1

onsuz ödənişsiz istifadə üçün

Ədəbiyyat: Г.Е.Ройтберг, А.В.Струтынский. Внутренние болезни. Система органов пищеварения - 2-е изд. – М.: МЕДпресс-информ. 2011, стр.414, абз.3.

347) 5-AST (5-aminosalisil turşusu) preparatlarına aiddir:

A) Mesalazin
B) Metronidazol
C) Sulfasalazin
D) Siklosporin
E) Prednizolon

Ədəbiyyat: Г.Е.Ройтберг, А.В.Струтынский. Внутренние болезни. Система органов пищеварения - 2-е изд. – М.: МЕДпресс-информ. 2011, стр.414, абз.4.

348) Kron xəstəliyi zamanı iltihab prosessinin göstəricisidir:

A) Kalprotektinin səviyyəsində artım
B) Hipoalbuminemiya
C) Hipokaliemiya
D) Mikrositar anemiya
E) Leykopeniya

Ədəbiyyat: Babayeva G.H., Mustafayev İ.İ. Xoralı kolit və Kron xəstəliyi: müasir diaqnostika və konservativ terapiyanın əsasları. Bakı,"AVROPA" nəşriyyatı-2017, s.126, abz.3.

349) Kron xəstəliyi zamanı əməliyyatdan sonraki residivləşmənin risk faktorlarına hansılar aiddir?

1. Tütündən istifadə
2. Perianalar zədələnmələr
3. Aftoz stomatit
4. Mədə zədələnməsi
5. Revmatoid artritin yanaşı getməsi

A) 1, 2
B) 1, 2, 4
C) 1, 3, 5
D) 2, 4
E) 4, 5

Ədəbiyyat: Babayeva G.H., Mustafayev İ.İ. Xoralı kolit və Kron xəstəliyi: müasir diaqnostika və konservativ terapiyanın əsasları. Bakı,"AVROPA" nəşriyyatı. 2017, s.117, abz.3.

350) Kron xəstəliyində "hormonal asılılıq" deyildikdə nə nəzərdə tutulur?

sinsk.az odənişsiz istifadə üçün

A) Steroid terapiya bitəndən sonra ilk 3 ay ərzində residivin əmələ gəlməsi
B) Steroid terapiya bitəndən sonra ilk 1 ay ərzində residivin əmələ gəlməsi
C) Steroid terapiya bitəndən sonra ilk 2 həftə ərzində residivin əmələ gəlməsi
D) Steroid terapiya bitəndən sonra ilk 6 ay ərzində residivin əmələ gəlməsi
E) Steroid terapiya bitəndən sonra ilk 1 il ərzində residivin əmələ gəlməsi

Ədəbiyyat: Babayeva G.H., Mustafayev İ.İ. Xoralı kolit və Kron xəstəliyi: müasir diaqnostika və konservativ terapiyanın əsasları. Bakı,"AVROPA" nəşriyyatı. 2017, s.97, abz.4.

351) Kron xəstəliyinin aktivliyi ilə əlaqədər olmayan autoimmun zədələnmələrə aiddir:

A) Aftoz stomatit
B) Düyünlü eritema
C) Psoriaz
D) Uveit
E) Artropatiyalar

Ədəbiyyat: Babayeva G.H., Mustafayev İ.İ. Xoralı kolit və Kron xəstəliyi: müasir diaqnostika və konservativ terapiyanın əsasları. Bakı,"AVROPA" nəşriyyatı. 2017, s.100, abz.3.

352) Daxili faktor mədə vəzinin hansı hüceyrələri tərəfindən sintez olunur?

A) Qədəfəbənzər hüceyrələr
B) Əsas hüceyrələr
C) Parietal hüceyrələr
D) Panet hüceyrələri
E) Enteroxromaffin hüceyrələr

Ədəbiyyat: Г.Е.Ройтберг, А.В.Струтынский. Внутренние болезни. Система органов пищеварения - 2-е изд. – М.: МЕДпресс-информ. 2011, с.82.

353) Autoimmun qastritə xasdır:

A) Qanda parietal hüceyrələrə qarşı anticisimlərin olması
B) Mədə adenokarsinoma riskinin aşağı olması
C) Fol turşusu defisitli anemiya
D) Xroniki multifokal atrofik qastritin yaranması
E) Qanda H.Pylori-yə qarşı anticimlərin aşkarlanması

Ədəbiyyat: Г.Е.Ройтберг, А.В.Струтынский. Внутренние болезни. Система органов пищеварения - 2-е изд. – М.: МЕДпресс-информ. 2011, с.162.

354) Proton pompa inhibitorlarının istifadəsi üçün əsas göstəricilər hansılardır?

1. Autoimmun qastrit

ərk.az ödənişsiz istifadə üçün

2. Atrofik qastrit
3. Zollinger-Ellison sindromu
4. 12 -barmaq bağırsağın xora xəstəliyi
5. Qastrointestinal qanaxmalar

A) 3, 4, 5
B) 2, 3, 4
C) 1, 2
D) 1, 3, 5
E) 2, 4

Ədəbiyyat: Г.Е.Ройтберг, А.В.Струтынский – Внутренние болезни. Система органов пищеварения - 2-е изд. – М.: МЕДпресс-информ. 2011, с..205.

355) H.Pylori-nin eradikasiyası üçün üçkomponentli müalicə sxemi hansı qrup preparatlarla aparılır?

A) Antisekretor, bismut və antimikrob preparatları
B) Bismut və antimikrob preparatları
C) Bismut və antisekretor preparatları
D) Bismut, antisekretor və antiviral preparatları
E) Prostaqlandinlər və antimikrob preparatları

Ədəbiyyat: Г.Е.Ройтберг, А.В.Струтынский – Внутренние болезни. Система органов пищеварения - 2-е изд. – М.: МЕДпресс-информ. 2011, с.198.

356) Hipertrofik qastritin kliniki təzahürünə aiddir:

A) Hipoproteinemik ödemlər
B) Ağızda yanğı hissi
C) Qəbizlik
D) Görmə zəifliyi
E) Artıq çəki

Ədəbiyyat: Г.Е.Ройтберг, А.В.Струтынский – Внутренние болезни. Система органов пищеварения - 2-е изд. – М.: МЕДпресс-информ. 2011, с.163.

357) Laktat dehidrogenaza izofermenti hansı orqan üçün spesifikdir?

A) Dalaq
B) Böyrəklər
C) Qaraciyər
D) Ağciyərlər
E) Beyin

Ədəbiyyat: İ.İ.Mustafayev, G.H. Sadıqova. Hepatologiyanın əsasları. 2016, s.15.

358) Laktat dehidrogenaza (LDH) izofermentinin uyğunluq sırasında bir-birinə

sınaq az ödənişsiz istifadə üçün

münasibət ardıcıllığı:

A) LDH2>LDH1>LDH3>LDH4>LDH5
B) LDH1 >LDH2 >LDH3 >LDH4 >LDH5
C) LDH1 >LDH3 >LDH2 >LDH4> LDH5
D) LDH1 >LDH3 >LDH2 =LDH4> LDH5
E) LDH3 >LDH4>LDH1> LDH3> LDH2

Ədəbiyyat: İ.İ.Mustafayev, G.H. Sadıqova. Hepatologiyanın əsasları. 2016, s.16.

359) Qələvi fosfatazanın qaraciyər xəstəliklərindən kənar artım səbəbinə aiddir:

A) Ağciyər infarktı
B) Hipotireoz
C) Sepsis
D) Uşaqlarda Epşteyn-Barr virusu
E) Ürək çatışmazlığı

Ədəbiyyat: İ.İ.Mustafayev, G.H. Sadıqova. Hepatologiyanın əsasları. 2016, s.18.

360) İlkin sklerozlaşan xolangit üçün biopsiya zamanı hansı spesfik görünüş olur?

A) Soğan qabığı sindromu
B) Təsbehə bənzər görünüş
C) Piqmentlə zəngin hüceyrə
D) Dəmir piqmenti
E) Ulduzabənzər hüceyrə

Ədəbiyyat: İ.İ.Mustafayev, G.H. Sadıqova. Hepatologiyanın əsasları. 2016, s.39.

361) Qaraciyərüstü hipertenziyaya səbəb olur:

A) Qapı venasının trombozu
B) Sarkoidoz
C) Bədxassəli şişlər
D) Sağ qulaqcıqda təzyiqin azalması ilə gedən kardioloji patologiyalar
E) Aşağı boş venaların obstruksiyası

Ədəbiyyat:İ.İ.Mustafayev, G.H. Sadıqova. Hepatologiyanın əsasları. 2016, s.53.

362) Qaraciyərdən 1 dəqiqədə keçən qanın həcmi nə qədər olur?

A) 1-1.5 L

Sınaq üçün ödənişsiz istifadə üçün

B) 2-2.5 L
C) 0.5-1 L
D) 1 L
E) 2-3 L

Ədəbiyyat: İ.İ.Mustafayev, G.H. Sadıqova. Hepatologiyanın əsasları. 2016, s.52.

363) Ezofaqoqastroduodenoskopiya zamanı qida borusu venalarının varikoz genişlənməsində II dərəcəyə uyğundur:

A) 1-3 mm
B) 3-5 mm
C) 5 -7 mm-dən artıq
D) 7-10 mm
E) 2-3,5 mm

Ədəbiyyat: İ.İ.Mustafayev, G.H. Sadıqova. Hepatologiyanın əsasları. 2016, s.54.

364) Hansı dərmanlar autoimmun hepatitin morfoloji əlamətlərinə start verir?

A) Urasil
B) Umiodaron
C) Halotan
D) Metotreksat
E) Aminokapron

Ədəbiyyat:İ.İ.Mustafayev, G.H. Sadıqova. Hepatologiyanın əsasları. 2016, s.98.

365) Nə zaman qaraciyər toxuması"piyli qaraciyər" kimi qiymətləndirilir?

A) Qaraciyər toxumasının 5%-dən artığı piylə infiltrasiya olunubsa
B) Qaraciyər toxumasının 7%-dən artığı piylə infiltrasiya olunubsa
C) Qaraciyər toxumasının 10%-dən artığı piylə infiltrasiya olunubsa
D) Qaraciyər toxumasının 2%-dən artığı piylə infiltrasiya olunubsa
E) Qaraciyər toxumasının 15%-dən artığı piylə infiltrasiya olunubsa

Ədəbiyyat: .İ.Mustafayev, G.H.Sadıqova Hepatologiyanın əsasları. 2016, s.142.

366) Hamiləlik dövründə kəskin inkişaf edən qaraciyər xəstəliklərinə aiddir:

A) Hepatoz
B) Baddi-Kiari sindromu
C) Preeklampsiya

Sınsk az ödənişsiz istifadə üçün

D) Hestoz
E) Hepatit B virusu ilə zədələnmə

Ədəbiyyat: İ.İ.Mustafayev, G.H.Sadıqova. Hepatologiyanın əsasları. 2016, s.178.

367) HELLP sindromu zamanı əsasən hansı klinik əlamət ən çox olur?

A) Proteinuriya
B) Preeklampsiya
C) Hipertenziya
D) Qanaxma
E) İnsult

Ədəbiyyat: İ.İ.Mustafayev, G.H.Sadıqova. Hepatologiyanın əsasları. 2016, s.183.

368) Postsinusoidal tip portal hipertenziyaya aiddir:

A) Venaların okkluziyası
B) Qaraciyər venalarının obstruksiyası
C) Amiloidoz
D) Şiştamatoz
E) Sistem şəkilli mastoidoz

Ədəbiyyat: İ.İ.Mustafayev, G.H.Sadıqova. Hepatologiyanın əsasları. 2016, s.53.

369) Nə qədər müddət davam edən ezofagit yarımkəskin ezofagit adlanır?

A) 3 aydan çox
B)1 ilə qədər
C) 3-6ay
D) 3 aya qədər
E) 1-3 ay

Ədəbiyyat: V.Ə.Əzizov. Daxili xəstəliklər. 2012, s.493.

370) Qida borusu xərçənginin birincili simptomlarına aiddir:

A) Requrgitasiya
B) Səsin tutulması
C) Qusma
D) Ümumi zəiflik
E) Öskürək

Ədəbiyyat: V.Ə.Əzizov. Daxili xəstəliklər. 2012, s.497.

sınsk.az ödənişsiz istifadə üçün

371) Qida borusu xərçənginin gecikmiş simptomlarına aiddir:

A) Döş sümüyü arxasında ağrı
B) Horner triadası

C) Disfagiya
D) Anemiya
E) Artmış selik ifrazı

Ədəbiyyat: V.Ə.Əzizov. Daxili xəstəliklər. 2012, s.497.

372) Xroniki qastritin lokalizasiyana görə təsnifatı:

A) Antral, panqastrit, mədə cismi
B) Mədə cismi, qranulomatoz, antral
C) Panqastrit, autoiummun, antral
D) Mədə cismi, alkoqollu, antral
E) Panqastrit, mikrobsuz, radiasion

Ədəbiyyat: V.Ə.Əzizov. Daxili xəstəliklər. 2012, s.518.

373) Diuretikorezistent assitin diaqnostik meyarı:

A) Son 4 gün ərzində bədən çəkisinin 800 qr-dan aşağıdırsa
B)1 həftə ərzində minimal dozada diuretik kombinasiyasının tətbiqinə baxmayaraq assit reqress əlamətləri qeyd edilmir
C) Müsbət müalicədən 8 həftə keçməmiş mülayim assitin əmələ gəlməsi
D) Son 3 gün ərzində bədən çəkisinin 800 qr-dan aşağıdırsa
E) Müsbət müalicədən 8 həftə keçməmiş böyük assitin əmələ gəlməsi

Ədəbiyyat: İ.İ.Mustafayev, G.H.Sadıqova Hepatologiyanın əsasları. 2016, s.73.

374) Hepatorenal sindromun diaqnostik meyarları:

A) Proteinuriyanın 500 mq/sutka aşağı olması
B) Kreatinin zərdabda 1.0 olması
C) Kreatin klirensinin 60ml/dəq-dən aşağı olması
D) Proteinuriya 800mq/sutka olması
E) Kreatin klirensinin 40ml/dəq-dən yuxarı olması

Ədəbiyyat: İ.İ.Mustafayev, G.H.Sadıqova Hepatologiyanın əsasları. 2016, s.59.

375) Fibroskan cihazının çatışmayan cəhətinə aiddir:

snsk.az ödənişsiz istifadə üçün

A) Müayinənin bir neçə dəfədə təkrar aparılması
B) Qeyri-invaziv olması
C) Bədən çəkisi artıq olan xəstələrdə məlumatın aşağı olması
D) F2-F3-ə həssaslığın az olması
E) Müayinələrin yüksək qiymətinin olması

Ədəbiyyat: İ.İ.Mustafayev, G.H.Sadıqova Hepatologiyanın əsasları. 2016, s.163.

376) Fibroskan cihazının üstünlüklərinə aiddir:

A) Qeyri-invaziv olması
B) F0-F2 ə həssaslığın az olması
C) Bədən çəkisi artıq olan xəstələrdə məlumatın aşağı olması
D) Hamilələrdə mümkün olmaması
E) Yan təsir və fəsadların olması

Ədəbiyyat: İ.İ.Mustafayev, G.H. Sadıqova Hepatologiyanın əsasları. 2016, s.163.

377) HCl sintezinin artması ilə əlaqədər hansı xəstəliyin yaranma riski artır?
A) Qastroezofaqial reflüks
B) Pankreatit
C) Vilson Konalov xəstəliyi, autoimmun hepatit tip II
D) Mukovissidoz
E) Viral hepatit A+D

Ədəbiyyat:Ивашкин В.Т., Маев И.В., Трухманов А.С., и др. Рекомендации Российской гастроэнтерологической ассоциации по диагностике и лечению гастроэзофагеальной рефлюксной болезни. Российский журнал гастроэнтерологии, гепатологии, колопроктологии. 2020;30(4):70–97. https://doi.org/10.22416/1382-4376-2020-30-4-70-97.(səh.73 abz.2)

378) Qastroezofageal reflüks xəstəliyi zamanı reflüks epizodları hansı təsir altında baş verir?
A) Mədənin fundal şöbəsinin boşalması nəticəsində
B) Aşağı diafraqmal sfinkterin boşalması nəticəsində
C) Acı bağırsağın stenozu nəticəsində
D) Kor bağırsağın infeksion zədələnməsi nəticəsində
E) Qalça bağırsağın və S-bənzər bağırsağın ptozu nəticəsində

Ədəbiyyat: Ивашкин В.Т., Маев И.В., Трухманов А.С., и др. Рекомендации Российской гастроэнтерологической ассоциации по диагностике и лечению гастроэзофагеальной рефлюксной болезни. Российский журнал гastроэнтерологии, гепатологии, колопроктологии. 2020;30(4):70–97. https://doi.org/10.22416/1382-4376-2020-30-4-70-97.(səh.73 abz.3)

379) Hansı sinir aşagı diafraqmal sfinkterin boşalmasina nəzarət edir?

Şəkilsiz istifadə üçün

A) Görmə siniri
B) Azan sinir
C) Qoxu siniri
D) Üçlü sinir
E) Üz siniri

Ədəbiyyat: Ивашкин В.Т., Маев И.В., Трухманов А.С., и др. Рекомендации Российской гастроэнтерологической ассоциации по диагностике и лечению гастроэзофагеальной рефлюксной болезни. Российский журнал гастроэнтерологии, гепатологии, колопроктологии. 2020;30(4):70–97. https://doi.org/10.22416/1382-4376-2020-30-4-70-97.(səh.73 abz.4)

380) Qastroezofageal reflüks xəstəliyi zamanı bronx qida borusu sindromunun əmələgəlmə səbəbi hansıdır?
A) Mədə möhtəviyyatının tənəffüs yoluna requrgitasiyası
B) İzafi bədən kütləsi, kaxeksiya
C) Disfagiya
D) Hiatal hernia
E) Xəstəliyin qisa müddət davam etməsi

Ədəbiyyat: Ивашкин В.Т., Маев И.В., Трухманов А.С., и др. Рекомендации Российской гастроэнтерологической ассоциации по диагностике и лечению гастроэзофагеальной рефлюксной болезни. Российский журнал гастроэнтерологии, гепатологии, колопроктологии. 2020;30(4):70–97. https://doi.org/10.22416/1382-4376-2020-30-4-70-97.(səh.74 abz.8)

381) Yatağın baş hissəsini qaldırmaq hansı xəstəliyin terapevtik qaydalarına daxildi?
A) Pankreatit
B) Ezofagial reflüks
C) Autoimmun hepatit, qaraciyər sirrozu
D) Feoxromistoma
E) Şəkərli diabet tip 1

Ədəbiyyat: Ивашкин В.Т., Маев И.В., Трухманов А.С., и др. Рекомендации Российской гастроэнтерологической ассоциации по диагностике и лечению гастроэзофагеальной рефлюксной болезни. Российский журнал гастроэнтерологии, гепатологии, колопроктологии. 2020;30(4):70–97. https://doi.org/10.22416/1382-4376-2020-30-4-70-97.(səh.81 abz.5)

382) Qida borusunun reflüks nəticəsində selikli qişanın tamlığının pozulması zamanı hansı xəstəlikdən fərqləndirmək lazımdır?
A) Barret qida borusu
B) Sarkoma
C) Leykoplakiyadan
D) İdiopatik ezofaqit
E) Qida borusunun divertikulundan

snsk.az ödənişsiz istifadə üçün

Ədəbiyyat: Ивашкин В.Т., Маев И.В., Трухманов А.С., и др. Рекомендации Российской гастроэнтерологической ассоциации по диагностике и лечению гастроэзофагеальной рефлюксной болезни. Российский журнал гастроэнтерологии, гепатологии, колопроктологии. 2020;30(4):70–97. https://doi.org/10.22416/1382-4376-2020-30-4-70-97.(səh.72 abz.3)

383) Qıcqırma,requrgitasiya kimi klinik əlamətlər hansı xəstəlik ücün xarakterikdir?
A) Qastroezofageal reflüks
B) Pankreatit
C) Öd daşı
D) Hepatit C+E
E) 12barmaq bağırsağın və düz bağırsağın xorası

Ədəbiyyat: Ивашкин В.Т., Маев И.В., Трухманов А.С., и др. Рекомендации Российской гастроэнтерологической ассоциации по диагностике и лечению гастроэзофагеальной рефлюксной болезни. Российский журнал гастроэнтерологии, гепатологии, колопроктологии. 2020;30(4):70–97. https://doi.org/10.22416/1382-4376-2020-30-4-70-97.(səh.74 abz.3)

384) Qısa xora anamnezi və uzun müddət çapıqlaşmayan mədə xorası olan 62 yaşında xəstə zəiflik, ürəkbulanma, iştahın itməsi, epiqastral nahiyyədə daimi ağrı, arıqlama kimi şikayətlərlə müraciət etmişdir. Bu zaman hansı xəstəlik haqda düşünmək olar?

A) Mədənin girəcək hissəsinin stenozu
B) Bədxassəli xora
C) Xoranın perforasiyasi
D) Xoradan mikro qanaxma
E) Xoranın penotrasiyası

Ədəbiyyat: Ивашкин В.Т., Маев И.В., Царьков П.В., и др.Диагностика и лечение язвенной болезни у взрослых (Клинические рекомендации Российской гастроэнтерологической ассоциации, Российского общества колоректальных хирургов и Российского эндоскопического общества). Российский журнал гастроэнтерологии, гепатологии, колопроктологии. 2020;30(1):49–70. https://doi.org/10.22416/1382-4376-2020-30-1-49-70.(səh.53 abz.7)

385) Simptomatik xoranı xora xəstəliyindən fərqləndirən əsas xüsusiyyət nədir?
A) Dözülməz ağri
B) Residivləşən gedişin olmaması
C) Xoranın lokalizasiyası
D) Qanaxma
E) Penetrasiya

Ədəbiyyat:Ивашкин В.Т., Маев И.В., Царьков П.В., и др.Диагностика и лечение язвенной болезни у взрослых (Клинические рекомендации Российской гастроэнтерологической ассоциации, Российского общества колоректальных

sınıfaz ödənişsiz istifadə üçün

хирургов и Российского эндоскопического общества). Российский журнал гастроэнтерологии, гепатологии, колопроктологии. 2020;30(1):49–70. https://doi.org/10.22416/1382-4376-2020-30-1-49-70.(səh.53 abz.9)

386) Hansı xəstəlik zamanı Kerlinq xorası əmələ gəlir?
A) Pankreatit
B) Yanıq xəstəliyi
C) Miokard infarktı
D) Sepsis
E) Qaraciyər sirrozu

Ədəbiyyat:Ивашкин В.Т., Маев И.В., Царьков П.В., и др.Диагностика и лечение язвенной болезни у взрослых (Клинические рекомендации Российской гастроэнтерологической ассоциации, Российского общества колоректальных хирургов и Российского эндоскопического общества). Российский журнал гастроэнтерологии, гепатологии, колопроктологии. 2020;30(1):49–70. https://doi.org/10.22416/1382-4376-2020-30-1-49-70.(səh.53 abz.9)

387) Bronxial astma diaqnozu təyin edildikdən sonra müalicənin məqsədlərinə qısa bir müddətdə nail olmaq üçün təxirə salınmadan hansı preparatlar qrupu təyin edilməlidir?

A) İnhalyasion qlükokortikosteroidlər
B) Qısa təsirmüddətli β_2-aqonistlər
C) Uzun təsirmüddətli β_2-aqonistlər
D) Leykotrien antaqonistləri
E) Kiçik doza ilə azalan sxemlə sistemli steroidlər

Ədəbiyyat: GINA-2019: обновленные рекомендации. Адаптированный перевод Н. Поздняковой. Пульмонологія, Алергологія, Риноларингологія» № 2 (47), 2019 р. С.6:Tam versiya: https://ginasthma.org/wp-content/uploads/2019/04/GINA-2019-main-Pocket-Guide-wms.pdf.

388) İnhalyasion qlükokortikosteroidlərin aşağı dozaları nə zaman səmərəli deyil?

A) Ağır kəskinləşmələrin müalicəsində
B) Ağır kəskinləşmələrin qarşısının alınmasında
C) Astma simptomlarının azaldılmasında
D) Fiziki gərginlik astmasının profilaktikasında
E) Ağciyərlərin funksiyasının yaxşılaşdırılmasında

Ədəbiyyat:GINA-2019: обновленные рекомендации. Адаптированный перевод Н. Поздняковой. Пульмонологія, Алергологія, Риноларингологія» № 2 (47), 2019 р. С.6-7:Tam versiya: https://ginasthma.org/wp-content/uploads/2019/04/GINA-2019-main-Pocket-Guide-wms.pdf.

389) Bronxial astmanın müalicəsində tez-tez istifadə olunan Budesonid və Flutikazon Propionatın (FP) (quru-tozlu inhalyatorlar) açağı, orta və yüksək dozaları hansılardır?

cnsk.az ödənişsiz istifadə üçün

A) Budesonid: 200-400, >400-800, >800; FP: 100-250, >250-500, >500 mkq
B) Budesonid: 100-200, >200-400, >400; FP: 200-250, >250-400, >400 mkq
C) Budesonid: 100-150, >150-300, >300; FP: 250-300, >300-400, >400 mkq
D) Budesonid: 150-300, >300-500, >500; FP: 200-300, >300-400, >400 mkq
E) Budesonid: 200-400, >400-800, 800-1000; FP: 250-350, >350-500, 500-700 mkq

Ədəbiyyat: GINA-2019: обновленные рекомендации. Адаптированный перевод Н. Поздняковой. Пульмонологія, Алергологія, Риноларингологія» № 2 (47), 2019 p. C.6-7:Tam versiya: https://ginasthma.org/wp-content/uploads/2019/04/GINA-2019-main-Pocket-Guide-wms.pdf.

390) Astmalı pasiyentlərin müalicə sxemi hansı tezliklə yenidən baxılır?

A) Müalicənin başlanmasından sonra 1-3 ay müddətində, sonra nəzarət məqsədilə hər 3-12 ay
B) Müalicənin başlanmasından 2-3 həftə müddətində, sonra nəzarət məqsədilə hər 3-6 aydan bir
C) Müalicənin başlanmasından 2-3 həftə müddətində, sonra nəzarət məqsədilə hər aydan bir
D) Müalicənin başlanmasından 2-3 aydan bir, sonra nəzarət məqsədilə hər 2-3 həftədən bir
E) Müalicənin başlanmasından sonra 1-3 aydan bir, sonra nəzarət məqsədilə hər 3-6 ay

Ədəbiyyat: GINA-2019: обновленные рекомендации. Адаптированный перевод Н. Поздняковой. Пульмонологія, Алергологія, Риноларингологія» № 2 (47), 2019 p. C.9:Tam versiya: https://ginasthma.org/wp-content/uploads/2019/04/GINA-2019-main-Pocket-Guide-wms.pdf.

381) 3 ay müddətində astma simptomları üzərində nəzarətin əldə olunması və saxlanılmasından sonra təyin olunan preparatarın yan təsirlərinin inkişaf riskinin azaldılması məqsədilə onların kəsilməsi yaxud dozalarının azaldılması haqqında düşünmək olar. Bunun üçün müəyyən şərtlərə əməl olunmalıdır. Bu hallar üçün göstərilən şərtlərin hansı əhəmiyyətsizdir?

A) Ağciyər funksiyası göstəricilərinin qiymətləndirilməsi
B) Preparatın kəsilməsi üçün əlverişli şəraitin seçilməsi
C) İlkin klinik statusun dəqiqləşdirilməsi
D) Böyüklər və yeniyetmələrdə inhalyasion qlükokortikosteroidlərin **(**İQKS) tam kəsilməsi
E) Sonrakı mərhələdə pasiyent üzərində ciddi nəzarətin aparılması

Ədəbiyyat: GINA-2019: обновленные рекомендации. Адаптированный перевод Н. Поздняковой. Пульмонологія, Алергологія, Риноларингологія» № 2 (47), 2019 p. C.:Tam versiya: https://ginasthma.org/wp-content/uploads/2019/04/GINA-2019-main-Pocket-Guide-wms.pdf.

382)Tiroidstimuləedici hormonunun miqdarını azaldan dərmanlara aiddir:

Şəxsi istifadə üçün

A) Qlükokortikoidlər
B) Sulfonamidlər
C) Litium karbonat
D) Fenilbutazon
E) Fenobarbital

Ədəbiyyat: Tiroid Hastalıkları Tanı ve Tedavi Kılavuzu, 2019, s.15.

383) Subklinik hipotireoz amanı qanda hormonların səviyyəsi necə dəyişir?

A) Tiroidstimuləedici hormon (TSH) qanda artır, sərbəst T4 normada qalır
B) TSH qanda normadadır, sərbəst T4 artır
C) TSH qanda enir, sərbəst T4 normada qalır
D) TSH və sərbəst T4 qanda artır
E) TSH və sərbəst T4 normada qalır

Ədəbiyyat: Tiroid Hastalıkları Tanı ve Tedavi Kılavuzu. 2019, s.36.

384) Prediabetə uyğun qlikohemoqlobinin göstəricisinə aiddir:

A) 5.7-6.4 %
B) >6.5%
C) <5.6
D) 6-7%
E) >11%

Ədəbiyyat: Diabetes Mellitus ve komplikasyonlarının tanı,tedavi ve izlem kılavuzu 2019 səh.15.

385) Hipertireoza aid olan əlamətlər:

A) Bradikardiya
B) Çəkinin artması, yuxululuq
C) Qəbizlik
D) Əsəbilik, çəki itkisi
E) İştahanın azalması

Ədəbiyyat: Tiroid Hastalıkları Tanı ve Tedavi Kılavuzu 2019. s.55.

386) Biquanid qrup dərmanlarına aiddir:

A) Metformin
B) Qlibenklamid
C) Qlimepirid
D) Qliklazid
E) Gepaqlinid

Ədəbiyyat: Diabetes Mellitus ve komplikasyonlarının tanı,tedavi ve izlem kılavuzu 2019 s.75.

Sınaq ödənişsiz istifadə üçün

387) Arterial hipertenziyanın 2-ci dərəcəsinə aiddir:

A) Sistolik arterial təzyiq (SAT) 160-179 mmHg və/və ya diastolik arterial təzyiq (DAT)
100-109 mmHg
B) SAT ≥ 180 mmHg və/və ya DAT ≥ 110 mmHg
C) SAT ≥ 140 mmHg və/və ya DAT <90 mmHg
D) SAT 140-159 mmHg və/və ya DAT 90-99 mmHg
E) SAT 130-139 mmHg və/və ya DAT 85-89 mmHg

Ədəbiyyat: ЕОК/ЕОАГ Рекомендации по лечению больных с артериальной гипертензией. Российский кардиологический журнал. 2018;23(12):143–228 (c.152).

388) Yüksək ürək-damar riskinə aiddir:

A) SCORE şkalasına görə 10 illik kardiovaskulyar risk 5-10%
B) SCORE şkalasına görə 10 illik kardiovaskulyar risk ≥10%
C) SCORE şkalasına görə 10 illik kardiovaskulyar risk <1%
D) SCORE şkalasına görə 10 illik kardiovaskulyar risk 1-10%
E) SCORE şkalasına görə 10 illik kardiovaskulyar risk 1-5%

Ədəbiyyat: ЕОК/ЕОАГ Рекомендации по лечению больных с артериальной гипертензией. Российский кардиологический журнал. 2018;23(12):143–228 (c.154).

389) 3-cü dərəcəli arterial hipertenziya zamanı tövsiyə olunur:

A) Bütün xəstələr ücün dərhal dərman müalicəsinin başlanılması
B) Yüksək ürək-damar riski olan xəstələrdə müalicənin başlanılması
C) Çox yüksək ürək-damar riski olan xəstələrdə müalicənin başlanılması
D) Aşağı ürək-damar riski olan xəstələrdə müalicənin başlanılması
E) Orta ürək-damar riski olan xəstələrdə müalicənin başlanılması

Ədəbiyyat: ЕОК/ЕОАГ Рекомендации по лечению больных с артериальной гипертензией. Российский кардиологический журнал. 2018;23(12):143–228 (c.174).

396) β-adrenoblokatorların mütləq əks göstərişinə aiddir:

A) Şəkərli diabet
B) Podaqra
C) Hiperkalemiya
D) Bronxial astma
E) Taxikardiya

Ədəbiyyat: ЕОК/ЕОАГ Рекомендации по лечению больных с артериальной гипертензией. Российский кардиологический журнал. 2018;23(12):143–228 (c.182).

sınaq variantının istifadə üçün

397) Xəstələrin neçə faizində feoxromositoma arterial hipertenziyanın səbəbidir?

A) <1%
B) >10%
C) >20%
D) 10-20%
E) 1-10%

Ədəbiyyat: ЕОК/ЕОАГ Рекомендации по лечению больных с артериальной гипертензией. Российский кардиологический журнал. 2018;23(12):143–228 (с.199).

398) Ürək çatışmazlığından şübhələnilən xəstədə ilkin instrumental müayinələrdən biridir:

A) Exokardioqrafiya
B) Rentgenoqrafiya
C) Pozitron emissiya tomoqrafiyası
D) Ultrasəs müayinəsi
E) Angioqrafiya

Ədəbiyyat: Akut ve Kronik Kalp Yetersizliği Tanı ve Tedavisine Yönelik 2012 ESC Kılavuzu, s.84.

399) Spondiloartritlərdə əsasən bu antigenin olması müşahidə olunur:

A) HLA-B27
B) HLA-DR4
C) HLA-B51
D) HLA-DR3
E) HLA-DR2

Ədəbiyyat: Harrison's İç hastalıkları 17. Baskı Orjinal Türkçe, 2013, s. 2109.

400) Sklerodermiya üçün ifadələrdən biri yalnışdır:

A) Etiologiyası bilinməyən xroniki sistem xəstəlikdir
B) Yalnız dərini zədələyir
C) Reyno sindromu ilə birlikdə müşahidə olunur
D) Qlomerulonefrit az rast gəlinir
E) Dəri qalınlaşması müşahidə olunur

Ədəbiyyat: Harrison's İç hastalıkları 17. Baskı Orjinal Türkçe, 2013, s. 2096.

401) Qırmızı qurdeşənəyində laborator olaraq ilk növbədə yoxlanılmalıdır:

A) Revmatoid faktor

sosk.az ödənişsiz istifadə üçün

B) Anti nuklear antitellər
C) Anti-tsiklik sitrullinləşmiş peptid
D) Antistreptolizin O
E) Antikardiolipinlər

Ədəbiyyat: Harrison's İç hastalıkları 17. Baskı Orjinal Türkçe, 2013, s. 2079

402) İnfeksion endokarditin böyük meyarına aiddir:

A) İntravenoz dərmanların istifadəsi
B) Hərarətin 38 °C dərəcədən çox olması
C) Osler düyünü
D) Rot ləkəsi
E) Ürək qapaqlarında vegetasiya

Ədəbiyyat: Harrison's İç hastalıkları 17. Baskı Orjinal Türkçe, 2013, səh. 792

403) İnsulinin təsir mexanizmi deyil:

A) Qlikogenin depolanmasını azaldır
B) Qlükozanın hüceyrə içərisinə keçməsinə kömək edir
C) Periferik və hepatik insulin həssaslığını artırır
D) Yağların parçalanmasını inhibə edir
E) Proteinlərin parçalanmasını inhibə edir.

Ədəbiyyat: Türkiye Endokrinoloji ve Metabolizma Derneği, Diabetes Mellitus ve komplikasyonlarının tanı, tedavi ve izlem kılavuzu. 2020, s.96.

404) Kardiovaskulyar xəstəliyi olan pasiyentlərdə bu qrup oral antidiabetik preparatlara üstünlük verilir:

A) Sodium qlukoza co transport 2 (SGLT2) inhibitorları
B) Tiazolidindionlar
C) Biquanidlər
D) Alfa-qlükozidaza inhibitorları
E) Sulfoniluril preparatları

Ədəbiyyat: Türkiye Endokrinoloji ve Metabolizma Derneği, Diabetes Mellitus ve komplikasyonlarının tanı, tedavi ve izlem kılavuzu, 2020, s.89.

405) İnsulin müalicəsinin ağırlaşmasına aid deyil:

A) Çəki itkisi
B) Massiv hepatomeqaliya
C) Ödem
D) Hipoqlikemiya
E) Lipohipertrofiya və atrofiya

Ədəbiyyat: Türkiye Endokrinoloji ve Metabolizma Derneği, Diabetes Mellitus ve komplikasyonlarının tanı, tedavi ve izlem kulavuzu, 2020, s.98.

Sınaq ödənişsiz istifadə üçün

406) Şəkərli diabet tip 2 olan xəstələrdə nə zaman insulin müalicəsinə keçmək məsləhət görülmür?

A) Digər oral antidiabetik preparatlarla hədəf göstərciləri əldə edə bilmədikdə
B) HbA1C≥10%
C) Ağır hiperqlikemik simptomlar - poliuriya, polidipsiya olduqda
D) Kəskin miokard infarktı zamanı
E) Aclıq plazma qlükoza miqdarı 100-125 mg/dl olduqda

Ədəbiyyat: Türkiye Endokrinoloji ve Metabolizma Derneği, Diabetes Mellitus ve komplikasyonlarının tanı, tedavi ve izlem kılavuzu. 2020, s.95.

407) Metforminin yan təsirlərinə aid deyil:

A) B12 vitamin çatışmazlığı
B) Diareya
C) Ağızda metallik dad
D) Dəmir çatışmazlığı
E) Qastrointestinal qıcıqlanma

Ədəbiyyat: Türkiye Endokrinoloji ve Metabolizma Derneği, Diabetes Mellitus ve komplikasyonlarının tanı, tedavi ve izlem kılavuzu. 2020, s.82.

408) Bədən kütləsi indeksi normal göstəriciləri nə qədər olmalıdır (kq/m^2)?
A) 18,5 – 24,9
B) 18,5 - dən az
C) 25,0 – 29,9
D) 30,0 – 34,9
E) 35,0 – 39,9

Ədəbiyyat: Ürək – damar xəstəliklərinin profilaktikası üzrə kliniki Protokol, 2014–cü il,s.39

409) Tac damarların zədələnməsi ilə əlaqədar olan döş qəfəsində ağrı hansı patoloji vəziyyətlərdə rast gələ bilər?
A) Aortal stenoz
B) Aortal qapaq çatışmazlığında
C) Ürəyin işemik xəstəliyində
D) Hipertrofik kardiomiopatiya
D) Perikardit

Ədəbiyyat: Döş qəfəsində ağrının differensial diaqnostikası üzrə kliniki Protokol,2009-cu il,s.7

410) Ürəyin işemik xəstəliyinin morfoloji əsası nədir?
A) Tac damar divarlarının endotel qatının aterosklerotik mənşəli zədələnməsi
B) Tac damarlarının divarlarının endotel qatının iltihablı mənşəli zədələnməsi

Sınaq üçün istifadə üçün

C) Tac damarlarının anadan gəlmə anomaliyası
D) Tac damarlarının divarlarının endotel qatının hiperplaziyası
E) Tac damarlarının divarlarının endotel qatının aplaziyası

Ədəbiyyat: V.Ə.Əzizov.Daxili xəstəliklər.cild1..səh.165

411) Koronar "X sindrom" hansı patologı vəziyyətin təsnifatına daxildir ?
A) Revmatik qızdırma
B) Ürəyin işemik xəstəliyi
C) Kardiomiopatiyalar
D) Essensiai hipertoniya
E) Miokarditlər

Ədəbiyyat:V.Ə.Əzizov.Daxili xəstəliklər.cild 1..səh.171

412) Tac damarların zədələnməsi ilə əlaqədər olmayan, döş qəfəsində yaranan ağrı necə adlanır?
A) Kardialgiya
B) Mialqiya
C) Nevralqiya
D) Osteoalqiya
E) Qastralgiya

Ədəbiyyat: Döş qəfəsində ağrının differensial diaqnostikası üzrə kliniki Protokol,2009 – cu il,s.7

413) Döş qəfəsində ağrıları ilə müşayiət olunan qabırğaarası sinirlərin virus mənşəli zədələnməsi necə adlanır ?
A) Layell sindromu
B) Herpes Zoster
C) Titse sindromu
D) Böyuk və kiçik döş əzələlərinin sindromu
E) Dressler sindromu.

Ədəbiyyat: Döş qəfəsində ağrının differensial diaqnostikası üzrə kliniki Protokol,2009 – cu il,s.7

414) Nəfəsalma zamanı döş qəfəsində ağrıların güclənməsinə hansı patologiyalarda daha tez rast gələ bilərik ?
A) Hipertrofik kardiomiopatiya, anadangəlmə ürək qüsurları, miokardit, mitral qapağın prolapsı
B) Miokardit, aortanın anevrizması, Herpes zoster, infeksion endokardit
C) Kəskin revmatik qızdırma, arterial hipertenziya, ruhi patologiya, aortanın laylanması
D) Plevrit, perikardit, sümük – oynaq xəstəliklərində
E) Kəskin pnevmoniya, Dressler sindromu, traxeyit, ezofaqit, böyük və kiçik döş əzələlərinin sindromu

Ədəbiyyat: Döş qəfəsində ağrının differensial diaqnostikası üzrə kliniki Protokol,2009 – cu il,s.8

sesk.az ödənişsiz istifadə üçün

415) Ürəyin işemik xəstəliyinin,modifikasiyanın aparılması mümkün olmayan risk amillərinə hansılar aiddir ?
A) Yaş,cins və irsi meyillilik
B) Siqaret çəkmə,alkoqol qəbulu
C) Artıq bədən kütləsi,piylənmə
D) Arterial hipertenziya,aşağı fiziki aktivlik
E) Podaqra,hiperhomosisteinemiya

Ədəbiyyat: Döş qəfəsində ağrının differensial diaqnostikası üzrə kliniki Protokol,2009 – cu il,s.8

416) Aterosklerozun xarici əlamətlərinə nələr aiddir?
A) Ksantomalar, ksantelazmalar, buynuz qişasında senil halqa, arteriyaların sərtləşməsi və genişlənməsi
B) Anulyar eritema, Libman ləkələri, rozeolyoz səpgi, Caneyev xətləri
C) Papulyoz səpgilər, herpetik səpgilər, ağciyər arteriya qapaqlarının, Öslerin düyünləri
D) Allopesiyaları, anulyar eritema, Aşof – Talalayevin qranulyomaları, Öslerin düyünləri
E) Allopesiylar, rozeolyoz səpgilər, petexiyalar

Ədəbiyyat: Döş qəfəsində ağrının differensial diaqnostikası üzrə kliniki Protokol, 2009 – cu il, s.9

417) Anamnez və fizikal müayinələrin nəticələrinə əsasən döş qəfəsində ağrının
həyat üçün təhlükəli səbəbi aşkar olunmadıqda belə, əksər yaşlı şəxslərə ən azı hansı müayinələri aparmaq lazımdır?
A) EKQ və döş qəfəsinin rentgenoqrafiyası
B) Göz dibinin yoxlanması, aşağı ətrafların damarlarının doppleroqrafiyası, ürək əzələsinin ssintiqrafiyası, koronaroqrafiya
C) Ürək damarlarının KT-sı, qarın boşluğunun USM
D) Ürək əzələsinin ssintiqrafiyası, reopletizmoqrafiya,
E) Veloerqometriya və ya tredmil

Ədəbiyyat: Döş qəfəsində ağrının differensial diaqnostikası üzrə kliniki Protokol,2009 – cu il,s.9

418) Döş qəfəsində ağrıların differensial diaqnostikasının aparılması məqsədi ilə hansı laborator müayinələri erkən mərhələdə istifadə etmək məsləhətdir?
A) Qanın ümumü analizi,bilirubin sərbəst və birləşmş,sidiyin ümumü analizi,sial turşusu,seromukoid
B)CRZ,qlobulinlər,sidiyin ümumü analizi və mikroskopiyası,leykoformulanın təyini, qanda kreatinin,qalıq azot
C) Qanın ümumü analizi,Troponinlər,KFK – nin MB fraksiyası,d – Dimer
D)Kreatinin,qalıq azot,ALAT,ASAT,KFK – nın BB fraksiyası,D – dimer.
E)LDQ,AsAT,AlAT,qanın ümumü analizi,İqG,İqE,kreatinin,qalıq azot

snsk.az ödənişsiz istifadə üçün

Ədəbiyyat: Döş qəfəsində ağrının differensial diaqnostikası üzrə kliniki Protokol,2009 – cu il,s.9

419)Ürəyin işemik xəstəliyinin əmələ gəlməsində iştirak edən risk amillərindən hansıları əsas qrupa aiddir?
A) Dislipidemiya,arterial hipertenziya,tütün çəkmə,piylənmə,2 – ci tip şəkərli diabet
B) Qeyri rasional qidalanma,hormonal disbalans,alkoqol qəbulu,artıq bədən kütləsi
C) Podaqra,hiperhomosisteinemiya,arterial hipertenziya,artıq bədən çəkisi
D) Klimaks,psixo – emosional gərginlik,qlükozaya qarşı tolerantlığın pozulması,artıq bədən kütləsi
E)Aşağı fiziki aktivlik,qeyri rasional qida qəbulu,kişi cinsi,milləti,psixo – emosional gərginlik

Ədəbiyyat: Sabit stenokardiyanın diaqnostikası və müalicəsi üzrə kliniki Protokol,2009 – cu il,s.

420) Stenokarditik ağrıların ən spesifik lokalizasiyanı göstərin ?
A) Döş sümüyünün orta və aşağı 1/3 - nin arxasında
B)Döş qəfəsinin arxasında.
C)Döş qəfəsinin sağ tərəfində.
D)Epiqastral nahiyyədə.
E)Başında.

Ədəbiyyat: :Döş qəfəsində ağrının differensial diaqnostikası üzrə kliniki Protokol,2009 – cu il,s.10

421)Tipik anginoz (stenokardiya) tutması neçə müddət davam edir?
A) Bir neçə qün.
B) 2 – 3 saatdan çox.
C) 10 satdan çox.
D) 24 saat fasiləsiz.
E) 1 – 3 dəqiqədən 10 dəqiqəyə qədər.

Ədəbiyyat: Döş qəfəsində ağrının differensial diaqnostikası üzrə kliniki Protokol,2009 – cu il,s.10

422) Hansı yanaşı gedən patologiyalar və risk amilləri döş qəfəsində stenokardik tipli ağrılar yarada bilər?
A) 2 – ci tip şəkərli diabet, metabolik sindrom, arterial hipertenziya, hiperxolisterinemiya, tütün çəkmə
B) Bronxial astma,ağciyərlərinin emfizeması, pnevmoskleroz, xroniki obstruktiv bronxit
C) Qaraciyərin biliar sirrozu, virus hepatiti, xolesistit, pankreatit xroniki və kəskin
D) Xroniki revmatik qızdırma, pielonefrit,qlomerulonefrit,böyrək daşı xəstəliyi
E) Sarkoidoz, qırmızı qurdeşənəyi, Xaşımoto xəstəliyi, tireotoksikoz, Titse xəstəliyi

Ədəbiyyat: Sabit stenokardiyanın diaqnostikası və müalicəsi üzrə kliniki Protokol, 2009 – cu il,s.8

Sesk.az ödənişsiz istifadə üçün

423) İstənilən yaşda olan sağlam insan fiziki aktivliyə və ya orta intensivli aerob fiziki məşqlərə həftədə neçə saat vaxt ayırmalıdır?
A) 1 – 2 saat.
B) 2,5 – 5 saat.
C) 8 – 10 saat.
D) 7 – 8 saat.
E) 30 dəqiqə

Ədəbiyyat: Ürək – damar xəstəliklərinin profilaktikası üzrə kliniki Protokol,2014 – cü il,s.36

424) Döş qəfəsində ağrının differensial diaqnostik məqsəd ilə hansı göstəricilərinə ilk növbədə diqqət vermək lazımdır?
A) Ağrının lokalizasiyasına,müddətinə və onların tətikləyici faktorlarına
B) Anamnestik məlumatlarına və yanaşı gedən patoloji vəziyyətlərinə
C) Fizikal müayinələrin nəticələrinə və zərərli vərdişlərin olub olmamasına
D) Yanaşı gedən xəstəliklərin və zərərli vərdişlərin olub olmamasına
E) Anadangəlmə patologiyaların və piylənmənin olub olmamasına

Ədəbiyyat: Döş qəfəsində ağrının differensial diaqnostikası üzrə kliniki Protokol,2009 – cu il,s.8

425) Döş qəfəsində ağrı ilə ambulator şəraitdə müraciət edən xəstələrin proqnozunu pisləşdirən amillərə nələr aiddir?
A) Keçirilmiş miokard infarktı,hiss dəstəsinin sol ayaqcığının tam blokadası,sol mədəciyin hipertrofiyası,II və III dərəcəli AV blokadası,səyirici aritmiya
B) Hiss dəstəsinin sağ ayaqcığının tam blokadası,I dərəcə AV blokada,kiçik voltajlı EKQ,sol mədəciyin dilatasiyası
C)Hiss dəstəsinin sol ayaqcığının ön şahəsinin blokadası,I dərəcəli sino –aurikulyar blokada,sinus arrest,sağ mədəciyin dilatasiyası
D)Sol qulaqcığın hipertrofiya,sağ mədəciyin hipertrofiyası,1 – ci dərəcə natamam AV blokada,Şmorl yırtığı
E) Titse sindromu,sinkope,mədasinin kardial şöbəsinin yırtığı ,epiqastral nahiyyəsində pulsasiya

Ədəbiyyat: Döş qəfəsində ağrının differensial diaqnostikası üzrə kliniki Protokol,2009 – cu il,s.11

426) Miokard infarktı diaqnozunun ehtimalını artıran əlamətlərə nələr aiddir?
A) Anginoz ağrı irradiasiya ilə,profuz tərləmə,hipotenziya
B)Gəyirmə,hıçqırma,qusma,ürək bulanma
C)Öskürək,boğulma,təngnəfəslik,baş gicəllənmə
D)Baş ağrısı,arterial təzyiqin artması,diffuz isti sianoz,titrətmə
E) Bayılma,baş gicəllənmə,hemiparez,hemipleqiya

Ədəbiyyat: Döş qəfəsində ağrının differensial diaqnostikası üzrə kliniki Protokol,2009 – cu il,s.10

427) Anginoz ağrı adətən kəskindirmi?
A) Mülayim olur

Sınaq imtahanı üçün istifadə üçün

B) Bəli
C) Müxtəlif variantlarda olur
D) Yox
E) Mütləq deyil,ağrı ola da bilər olmayada bilər

Ədəbiyyat: Döş qəfəsində ağrının differensial diaqnostikası üzrə kliniki Protokol,2009 – cu il.s.10

428) İlkin tibbi təmas zamanı,döş qəfəsində ağrı müəyyən edilərsə ,EKQ müayinəsini neçə müddət ərzində aparmaq məsləhətdir?
A) 1 saat ərzində
B) 30 dəqiqə ərzində
C) 10 dəqiqə ərzində
D) 1,5 saat ərzində
E) 2 saat ərzində

Ədəbiyyat: Döş qəfəsində ağrının differensial diaqnostikası üzrə kliniki Protokol,2009 – cu il,s.12

429) KFK – nin MB fraksiyasının hansı rəqəmlərə qədər artması, 30 gün ərzində ölüm hadisələrinin əmələ gəlməsinin prediktoru kimi təyin olunur?
A) 4.0 pq/ml
B) 5.0 pq /ml
C) 6.0 pq\ml
D) 3,0 pq/ml
E) 2,0 pq/ml

Ədəbiyyat: Döş qəfəsində ağrının differensial diaqnostikası üzrə kliniki Protokol,2009 – cu il,s.13

430) Döş qəfəsində ağrı tutmasından sonra neçə saat ərzində troponinlərin normal səviyyədə qalması, xüsusən də EKQ normal və ya normaya yaxın olarsa, Mİ və KKS əleyhinə ciddi sübutdur?
A) 2 - 3 saat
B) 0,5 - 2 saat
C) 6 - 72 saat
D) 4 - 5 saat
E) 24 - 48 saat

Ədəbiyyat: Döş qəfəsində ağrının differensial diaqnostikası üzrə kliniki Protokol, 2009 – cu il, s.13

431) Ailə həkimi xəstə ilə ilk təmas edən zaman,EKQ – ik dəyişiklikləri qiymətləndirərkən hansı dəyişikliklər əsasında transmural miokard infarktının əmələ gəlməsini təstiqləməlidir ?
A) ST seqmentin izoxətnən monofaz əyrilik şəkilində qalxması.
B) Patoloji Q dişinin qeyd olunması,tam köndələn AV blokada,sağ ayaqcığın tam blokadası.
C) Döş aparmalarında R dişinin artmasının olmaması,ST seqmentin izoxəttən aşağı

snsk.az ödənişsiz istifadə üçün

düşməsi.
D) Səyirici aritmiyanın təyin olunması,hiss dəstəsinin sol ayaqcığının natamam blokadası,WPW sindromu.
E) Hiss dəstəsinin sağ ayaqcığının tam blokadası,WPW sindrom,II - ci və ya III – cü dərəcəli natamam AV blokada.

Ədəbiyyat: Döş qəfəsində ağrının differensial diaqnostikası üzrə kliniki Protokol,2009 – cu il,s.12

432) STQMİ (ST seqmentin qalxması ilə gedən miokard infarktı) və QSS-li (qeyri-sabit stenokardiyalı) xəstələrdə ağrını kəsmək üçün hansı dərmanların istifadəsi məsləhətdir?
A) Opioidlərın
B) İltihab əleyhinə qeyri-steroid preparatların
C) Spazmolitiklər v/d və ya ə/d
D) α – adrenoblokatorlar, per os
E) Simpatomimetiklərin v/d

Ədəbiyyat: Döş qəfəsində ağrının differensial diaqnostikası üzrə kliniki Protokol, 2009 – cu il,s.13

433) Opioidlərin effekti tam olmadıqda, hansı dərmanı istifadə etmək məsləhətdir?
A) Vena daxili antikoaqulyantlar
B) Qeyri steroid iltihab əleyhinə dərmanlar.
C) Vena daxili spazmolitiklər.
D) Vena daxili β – blokatorlar və nitratlar..
E) Trankvilzatorların yeridilməsi.

Ədəbiyyat: Döş qəfəsində ağrının differensial diaqnostikası üzrə kliniki Protokol,2009 – cu il,s.13

434) Miokard infarktı olan xəstələrdə enterik örtüyü olmayan aspirinin ilkin dozası nə qədər olmalıdır?
A) 300 – 400 mq
B) 50 – 100 mq
C) 150 – 200 mq
D) 250 mq
E)500 mq

Ədəbiyyat: Döş qəfəsində ağrının differensial diaqnostikası üzrə kliniki Protokol,2009 – cu il,s.13

435) Qəfləti koronar ölüm, ilk dəfə ürək ağrısı əmələ gələnnən neçə müddət sonra baş verir ?
A) 1 saat ərzində
B) 2 saat ərzində
C) 3 saat ərzində
D) 4 saat ərzində
E) 5 saat ərzində

Sinir.az ödənişsiz istifadə üçün

Ədəbiyyat; V.Ə.Əzizov.Daxili xəstəliklər.cild 1,Kardiologiya.səh.171.

436) Bakı şəhərində əmək qabiliyyətli yaş xətti üzrə olan insanlarda UİX – nin yayılması nə qədər təşkil edir?
A) Kişilər – 20,1%,Qadınlar – 25,6%
B) Kişilər – 15,5%,Qadınlar – 20,1%
C) Kişilər – 10,9%,Qadınlar – 16,2%
D)Kişilər – 25,6%,Qadınlar – 30,2%
E)Kişilər – 30,2%,Qadınlar – 34,9%

Ədəbiyyat: Zeynalov A.F. Bakı şəhəri əmək qabiliyyətli əhali arasında ÜİX – i və karbohidrat mübadiləsinin pozulması, Журнал» Кардиология».Москва,2005 il.№ 5.,səh.46 – 47.

437) Kəskin koronar sindrom müəyyən edilən xəstələrdə təngnəfəslik və ya ürək çatışmazlığı yaranarsa, təcili yardım tədbirləri üçün nələr olmalıdır ?
A) Ürək qlükozidləri yeridilməlidir
B) Oksigen verilməlidir
C) L – karnitin v/d yeridilməlidir
D) Sol.Riboksin v/d .2 % 10 ml yeridilməlidir
E) Sol.Prednizolon 120 mq.v\d yeridilməlidir

Ədəbiyyat: Döş qəfəsində ağrının differensial diaqnostikası üzrə kliniki Protokol,2009 – cu il,s.13

438) Hansı risk amili idarə olunan qrupa aiddir ?
A) Kişi cinsi
B) İrsi meyillilik
C) 50 – 60 yaş
D) Arterial hipertenziya
E) Bədənin konstitusional tip

Ədəbiyyat: Sabit stenokardiyanın diaqnostikası və müalicəsi üzrə kliniki Protokol,2009 – cu il,s.8

439) SCORE şkalası neçə illik ümumü ölüm riskini təyin etmək üçün istifadə olunur?
A) 5 illik
B) 10 illik
C) 15 illik
D)20 illik
E) 1 illik

Ədəbiyyat. Ürək – Damar xəstəliklərinin profilaktikası üzrə kliniki Protokol,2014 – cü il,s.13

440) SCORE (Systemic Coronary Risk Evaluation - koronar riskin sistemli qiymətləndirilməsi) şkalasında hansı parametrlər əks edilir?
A) Yaş, cins, ümumi xolesterin, tütün çəkmə, SAT(Sistolik arterial təzyiq)

onsk.az ödənişsiz istifadə üçün

B) Diastolik arterial təzyiq,BKİ,trigliseridlərin konsentrasiyası
C) Siqaret çəkmə,diastolik arterial təzyiq,BKİ,cins,yaş
D) Alkoqol qəbulu,sistolik arterial təzyiq,fiziki aktivliyin dərəcəsi,cins,yaş
E) Alkoqol qəbulu,homosisteyinin konsentrasiyası,diastolik arterial təzyiq,cins,yaş

Ədəbiyyat: Ürək – Damar xəstəliklərinin profilaktikası üzrə kliniki Protokol,2009 – cu il,s.13.

441) Hansı qeyri invaziv vizual üsul ilə damar divarında zədələnmənin olub olmamasını izləmək olar ?
A) Döş qəfəsinin R - skopiyası
B) Exo kardioqrafiya
C) Yuxu arteriyasının doppleroqrafiyası
D) Döş qəfəsinin palpasiya,perkussiya,auskultasiya
E) Ürək əzələsinin izotop müayinəsi

Ədəbiyyat: Ürək – Damar xəstəliklərinin profilaktikası üzrə kliniki Protokol,2014 – cü il,s.23

442) Qadınlarda abdominal piylənmə zamanı bel çevrəsinin ölçüsü nə qədər təşkil edir ?
A) 88 sm çox ya bərabərdir
B) 92 sm çox ya bərabərdir
C) 100 sm çox ya bərabərdir
D) 110 sm çox ya bərabərdir
E)120 sm çox ya bərabərdir

Ədəbiyyat: Ürək –Damar xəstəliklərinin profilaktikası üzrə kliniki Protokol,2014 – cü il,s.40

443) Kişilərdə abdominal piylənmə zamanı bel çevrəsinin göstəricisi nə qədər təşkil edir?
A) 120 sm çox ya bərabərdir
B) 110 sm çox ya bərabərdir
C) 102 sm çox ya bərabərdir -
D)130 sm çox ya bərabərdir
E)140 sm çox ya bərabərdir

Ədəbiyyat: Ürək – Damar xəstəliklərinin profilaktikası üzrə kliniki Protokol,2014 – cü il,s.40

444) Sabit stenokardiyanın təsnifatına (Kanada Ürək-Damar Cəmiyyəti) əsasən II F.S. necə təyin olunur?
A) “Adi fiziki aktivlikdə yüngül məhdudiyyət”. Sürətli yerimək və ya pilləkən çıxmaq, yoxuşla qalxmaq, toxqarına yerimək, soyuq havada yerimək, emosional stress zamanı, oyandıqdan sonra bir neçə saat ərzində.
B) “Adi fiziki aktivlik stenokardiyaya səbəb olmur”. Stenokardiya ancaq ağır, intensiv və uzunmüddətli gərginlikdən sonra meydana gəlir.
C) “Adi fiziki aktivlikdə nəzərəçarpan məhdudiyyət”. Normal şərtlər daxilində normal sürətlə bir və ya iki kvartal məsafə yeriyərkən (100-200 metr) və ya bir mərtəbə

Şəxsi ödənişsiz istifadə üçün

pilləkən qalxarkən.
D) “Hər hansı bir fiziki aktivlik narahatlığa səbəb olur” və ya “sakitlik stenokardiyası”.
E) Adi fiziki yükləmədə məhdudiyyət qeyd olunmur.

Ədəbiyyat: Sabit stenokardiyanın diaqnostikası və müalicəsi üzrə kliniki Protokol,2009 – cu il,s.9

445) Aşağı sıxlıqlı lipoproteidlərin xolesterininin miqdarı normada nə qədər təşkil edir ?
A)1,5 mmol/l- dan az
B)2,0 mmol/l-dan az
C)3,0 mmol/l – dan az
D) 4,0 mmol\ - dan az
E) 5.0 mmol/l – dan az

Ədəbiyyat: Ürək – Damar xəstəliklərinin profilaktikası üzrə kliniki Protokol,2014 – cü il,s.51

446) Triqliseridlərin normal göstəricisi nə qədər təşkil edir?
A) 2,2 mmol/l – dan az
B) 2.0 mmol/ l – dan az
C) 1,7 mmol/l – dan az
D) 2,4 mmol/l – dan az
E) 2,6 mmol/l – dan az

Ədəbiyyat: Ürək – Damar xəstəliklərinin profilaktikası üzrə klinik Protokol,2014 – cü il,s.51

447) Ümumü xolesterinin qanda konsentrasiyası normada nə qədər olmalıdır?
A) 5,0 mmol/l – dan az.
B) 6,0 mmol/l – dan çox ya bərabərdir
C) 7,0 mmol/l – dan çox. ya bərabərdir
D) 8,0 mmol/l – dan çox ya bərabərdir
E) 9,0 mmol/l – dan çox ya bərabərdir

Ədəbiyyat: Ürək – Damar xəstəliklərinin profilaktikası üzrə kliniki Protokol,2014 – cü il,s.52

448) Aşağı sıxlıqlı lipoproteidlərin xolesterinini hədəf səviyyəsinə çatdırmaq üçün neçə faiz azaltmaq məsləhətdir?
